

**Akif Mustafa oğlu Bağırov nə az, nə də çox, düz 25 il təhlükəsizlik orqanlarında çalışıb, dövlətçiliyimizin qorunması, Vətən səmasını buludların almaması, qara qüvvələrin ölkəmizdə əl-ayaq açmaması uğrunda gecə-gündüz çalışıb, gərgin fəaliyyət göstərib və peşəkar əks-kəşfiyyatçı kimi tanınıb... Altı gün öncə–mart ayının 23-də anadan olmasının 100 illiyi doğmaları, sevənləri və çiyin-çiynə çalışdığı həmkarları tərəfindən qeyd olunan peşəkar əks-kəşfiyyatçı 1916-cı ildə Gəncə şəhərində elin sayılıb-seçilən ziyalılarından olan Mustafa müəllimlə Firuzə xanımın ailəsində dünyaya gəlib. İlk təhsilini elə qədim Gəncədə, yeddiillik məktəbdə alıb (1924-31), sonra isə Kirovabad tibbi fəhlə fakültəsində oxuyub (1931-35). Tibb sahəsinə azacıq yaxınlaşması bu humanist peşəyə qəlbində böyük sevgi oyadıb. Bu sevginin diktəsi ilə Bakıya üz tutub. İnsanların sağlamlığı keşiyində vicdanla durmaq üçün Azərbaycan Dövlət Tibb İnstitutuna daxil olub. Lakin soydaşlarının sağlamlığını qorumaq arzusu ilə yaşayan gənc Akif Bağırov özü qəflətən xəstələnib və həkimlərin tövsiyəsinə əsasən Gəncəyə qayıdıb.**

# Unudulmaz şəxsiyyət

## *O, peşəkar əks-kəşfiyyatçı idi...*

Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun hidromeliorasiya fakültəsinə daxil olaraq təhsilini davam etdirib və 1941-ci ildə institutu fərqlənmə diplomu ilə bitirərək mühəndis-hidrotexnik ixtisasına yiyələnib.

Hansı işdən yapışsa, hansı tapşırığı yerinə yetirməyə başlasa, həmin işə ürəkdən bağlanan, canı-dildən çalışaraq ona göstərilən etimada, tutduğu vəzifəyə layiq olmağa ciddi səy göstərən Akif Bağırov hələ AKTİ-nin tələbəsi ikən əmək cəbhəsinə atılıb. Gəncə şəhər SSİ-də hidrotexnik şagirdi kimi əmək fəaliyyətinə başlayıb. 1940-cı illərdə Samur-Dəvəçi kanalının tikintisində iştirak edib, çox gənc olmasına baxmayaraq iş icraçısı vəzifəsinədək yüksəlib və ən müxtəlif işləri canbasla yerinə yetirib. Çalışqanlığı, həssaslığı, işə ürəklə yanaşması diqqətdən kənarda qalmayıb, o dövrün mətbuatında gənc tələbə-hidrotexnik barədə yazılar dərc olunub, şəkli şərəf lövhəsinin bəzəyinə çevrilib. Yaşanan günlərin dəyərini bilib, əsl mütəxəssis kimi yetişmək üçün üzərinə açılan imkanlardan bacarıqla faydalanaraq ümumi işin xeyrinə addımlar atıb. Daha sonra A.Bağırov Hacıkənddə təşkil edilmiş yay düşərgə toplantıları da daxil olmaqla ikiillik tam ali hərbi hazırlıq kursu keçib və 1938-ci ildə kiçik leytenant rütbəsi alıb.

Gənc leytenant üçün vaxt hər şeydən qiymətli idi... Çünki ömründən keçən hər ayı, günü, saatı doğma xalqı, el-obası üçün faydalı ola biləcək işlərə sərf etmək, vətənə layiqli övlad-vətəndaş və "Vətən daşı" ola bilmək onun həyat kredosuna çevrilmişdi. Buna görə də tapşırılan hər işə ürəklə yanaşır, işgüzarlığı, çalışqanlığı ilə seçilir, qazandığı uğurlar rəhbərlik qarşısında üzünü ağardırdı... Ehtiyatda olan bacarıqlı zabit təkcə əmək cəbhəsində deyil, Böyük Vətən Müharibəsi zamanı gedən qızğın döyüşlərdə də özünü nümunəvi əsgər, qorxmaz döyüşçü, alovlu vətənpərvər kimi təsdiq edib... Beləliklə, o zamanlar SSRİ adlanan on beş respublikanın birliyindən yaradılmış Vətənin müdafiəsindən başlayan şərəfli ömür yoluna çıxır Akif Bağırov...

Müharibənin başladığı ilk günlərdən ehtiyatda olan zabit kimi Sovet Ordusu sıralarına səfərbərliyə alınan Akif Bağırov 27 iyul 1942-ci ilədək əsasən Şimali Qafqazda və digər şəhərlərdə müxtəlif komanda vəzifələrində xidmət edir. Lakin 1942-ci ilin 14 mayında Şimali Qafqaz cəbhəsinin arxa cəbhənin mühafizəsi üləhiddə batalyonunun qərargah rəisi kimi xidməti vəzifəsini yerinə yetirərkən bombardman nəticəsində yüngül kontuziya alır. Müalicə olunduqdan sonra isə yenidən qərargaha qayıdır. Arxa cəbhəni düşməndən müdafiə edən döyüşçü zabit göstərdiyi şücaətlərə görə, dövlətin 17 orden və medalı ilə təltif olunur. 1942-ci ilin iyul ayında Şimali Qafqaz cəbhəsi qərargahının qərarı ilə batalyon dağıdılarkən komandanlıq Akif Bağırovu Azərbaycan SSR Bərdə rayon Hərbi Komissarlığının sərəncamına göndərir.

1943-cü ildə Azərbaycan SSR Xalq Daxili İşlər Komissarlığının Bərdə rayon şöbəsi tərəfindən Dövlət Təhlükəsizliyi Nazirliyinin (DTN) Bakı Diyarlararası Məktəbinə təhsil almağa göndərilir. Burada təhsil alarkən xüsusi dövlət tapşırıqlarının yerinə yetirilməsi məqsədi ilə əməliyyat ezamiyyətlərində olur və dəfələrlə Azərbaycan SSR Xalq Komissarlığı tərəfindən mükafatlara layiq görülür. Həmin məktəbi bitirdikdən sonra işləmək üçün DTN-in Kirovabad (indiki Gəncə) şəhər şöbəsinə göndərilir. Az bir zamanda xüsusi təşkilatçılıq bacarığı və mükəmməl savadı ilə tanınan A.Bağırov əməliyyat müvəkkili vəzifəsindən şöbə rəisi vəzifəsinədək yüksəlir. Və... **Xüsusi təyinatlı əməkdaş statusu qazanır...**

A.Bağırov 1950-ci ilin avqustunda Azərbaycan SSR DTN-in göndərişi ilə SSRİ DTN-in Leninqraddakı məktəbinə oxumağa göndərilir. Yeri gəlmişkən qeyd edək ki, ümummilli liderimiz Heydər Əliyev də bu məktəbdə təhsil alıb. A.Bağırov məktəbdə oxuyarkən bütün müəllimlərin etimadını qazanıb. Təsadüfi deyil ki, məktəbin rəisi, polkovnik Pinçuk A.Bağırova verdiyi xasiyyətnamədə onu digər müdavimlərdən fərqləndirərək bacarıqlı, nizam-intizamlı, savadlı və əlaçı tələbə kimi təqdim edir. Nəhayət, Akif Bağırov 1952-ci ildə yeni təyinat alır və DTN-nın Gəncə vilayəti üzrə idarəsinin şöbə rəisi vəzifəsinə təyin olunur.

1953-54-cü illərdə isə DİN Şəki rayon şöbəsinin rəisi, 1954-57-ci illərdə Azərbaycan SSR DTK-nın II şöbəsinin 1, 2 və 4-cü bölmələrinin rəisi, 1957-58-ci illərdə DTK-nın Dağlıq Qarabağ Muxtar Vilayəti üzrə idarə rəisi vəzifələrində işləyir və həmkarları arasında bacarıqlı təşkilatçı, mahir əks-kəşfiyyatçı kimi tanınır.

Təhlükəsizlik orqanlarından təqaüdə çıxdıqdan sonra, 1968-ci ilin noyabrında Azərbaycan SSR Baş Su Kəmərləri Tikinti İdarəsinin rəis müavini vəzifəsinə təyin olunur. Bir çox dövlət mükafatları, o cümlədən Azərbaycan SSR Ali Sovetinin fəxri fərmanı ilə təltif edilir.

Bu gün Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) muzeyində Akif Bağırova məxsus bir sıra sənədlər saxlanılır. DTK sədri Heydər Əliyevin imzası ilə A.Bağırova verilən vəsiqə isə DTX-nın muzeyində saxlanılan yeganə bu tip sənəddir. Qeyd edək ki, bu sistemin qanunlarına görə, təhlükəsizlik orqanlarının əməkdaşları təqaüdə çıxandan sonra onların vəsiqələri məhv edilməlidir. Lakin A.Bağırovun vəsiqəsi muzeydə qiymətli eksponat kimi saxlanılır. Həmçinin, burada xüsusi təyinatlı əməkdaş A.Bağırova məxsus anket də mühafizə olunur.

### Erməni separatçıları ilə mübarizədə onun xüsusi rolu olub...

Akif Bağırovun oğlu Xaqani Bağırov da atasının şərəfli işinin, ömür yolunun layiqli davamçısı olub, düz 40 il təhlükəsizlik orqanlarında çalışıb. Əməliyyat müvəkkilliyindən idarə rəisi vəzifəsinədək şərəfli kəşfiyyatçılıq yolu keçən və 2016-ci ilin yanvarında, ömrünün 71-ci qışında dünyasını dəyişən polkovnik X.Bağırov vaxtilə atası ilə bağlı xatirələrini bölüşərkən demişdi: "Atam həqiqətən öz işinin mütəxəssisi olub. Təhlükəsizlik orqanlarında işlədiyi müddətdə nümunəvi işçi kimi tanınıb. Onunla ümummilli lider Heydər Əliyev arasında səmimi münasibət var idi. Atam 1957-58-ci illərdə DTK-nın DQMV üzrə idarə rəisi vəzifəsində çalışıb. O vaxt mən 6-cı sinifdə oxuyurdum. Azərbaycanla qonşu olandan sonra daim torpaqlarımızı özününküləşdirmək iddiasında olan ermənilər həmin illərdə separatçı meyillərini nümayiş etdirirdilər. Atam xatırlayırdı ki, Xankəndidə işləyərkən bir neçə dəfə belə hadisə ilə üzləşib. Yerli azərbaycanlıları sıxışdırmaq niyyəti güdən ermənilər dəfələrlə xırda münaqişələr də törədiblər. Bundan başqa, ermənilər Dağlıq Qarabağ ərazisində xüsusi vərəqələr yaymağa cəhd göstəriblər. Həmin vərəqələrdə Dağlıq Qarabağın Ermənistana birləşdirilməsindən söz açılırmış. Sözsüz ki, Dağlıq Qarabağ erməniləri bu tapşırıqları Ermənistandan alırdılar. Lakin bu hadisələrin dərhal qarşısı alınıb, hətta separatçılığı təbliğ edənlərdən bəziləri həbs olunub. O dövrdə Azərbaycan SSR DTK-da erməni daşnaklara və millətçilərinə qarşı xüsusi mübarizə xətti var idi və bu istiqamətdə ciddi iş gedirdi. Həbslərlə yanaşı, digər profilaktik tədbirlər də həyata keçirilirdi. Qeyd edim ki, 1980-ci illərdə yaradılan "Krunk" kimi təşkilatlardan fərqli olaraq 1950-60-cı illərdə Dağlıq Qarabağda ermənilərin kiçik qruplaşmaları olub.

1988-ci illərdə ermənilər yenidən baş qaldıranda atam ömrünün son çağlarını yaşayırdı və o, ermənilərin Dağlıq Qarabağda yenidən fəallaşmasını çox ağrılı, qəzəblə qarşılayırdı. Deyirdi ki, bu hadisələrin qarşısı dərhal alınmalıdır, əks halda ermənilərin separatçılıq fəaliyyəti çox çəkəcək".

Yeri gəlmişkən, hazırda MTN-in muzeyində 60-cı illərdə Dağlıq Qarabağda erməni separatçılarının baş qaldırması ilə bağlı faktları özündə əks etdirən bir sıra sənədlər də saxlanılır. Bu məqamda həmin sənədlərdən birinə nəzər salmağı məqsədəuyğun sayırıq: "9 fevral 1962-ci ildə Moskvadakı Baş Əks-Kəşfiyyat İdarəsindən Azərbaycan DTK-nın əkskəşfiyyat şöbəsinin rəisi, podpolkovnik Heydər Əliyevə xüsusi məktub göndərilib. Məktubda bildirilib ki, 1961-cı il noyabrın sonlarında Livana ezam olunan ABŞ xəfiyyələri orada "Daşnaksütyun" partiyasının üzvləri ilə gizli toplantı keçiriblər. Toplantıda daşnaklara Sovet İttifaqı ərazisində kəşfiyyat fəaliyyətlərini aktivləşdirmək tapşırığı verilib. Eyni zamanda orada 1961-ci ildə Suriyada həbs olunan bir qrup erməni terrorçusunun azad edilməsi barədə qərar qəbul olunub. Toplantıda, həmçinin, xarici ölkələrdən olan ermənilərin SSRİ ərazisində məskunlaşdırılması məsələsi müzakirə edilib. Heydər Əliyev isə məsələ ilə bağlı təhlükəsizlik orqanının digər işçisi Akif Bağırovu məlumatlandırıb və erməni kəşfiyyatçılarının Azərbaycan ərazisində fəallaşmalarının qarşısı alınıb".

Digər hadisə isə 1958-ci ildə Qarabağ səmasında vurulan ABŞ təyyarəsi ilə bağlı baş verib. Belə ki, "Amerikaya məxsus "Duqlas" tipli təyyarə Türkiyə üzərindən keçərək SSRİ-nin hava sərhədini pozub. Ermənistan üzərindən Azərbaycan istiqamətinə uçan təyyarə sərhəddən 170 km. uzaqlaşdıqdan sonra Qarabağ ərazisindəki İnnax kəndi üzərində SSRİ Hərbi Hava Qüvvələrinin MİQ tipli təyyarəsi ilə vurularaq yerə salınıb.

A.Bağırov da həmin vaxt Dağlıq Qarabağda xidməti vəzifəsinə yerinə yetirirmiş. Hadisədən dərhal sonra Heydər Əliyev başda olmaqla, böyük bir əməliyyat qrupu yaradılır. Akif müəllim də həmin qrupda təmsil olunub. Təyyarə vurularkən içərisindəki 5 nəfər paraşütlə tullandığından sağ qalıblar. Güc strukturu bölmələrinin iştirakı ilə keçirilən əməliyyat-axtarış tədbirlərinə həm də çoxlu sayda mülki insan cəlb edilibmiş. Nəticədə Amerika təyyarəçilərini tapmaq mümkün olub. Axtarış tədbirlərində Akif Bağırov da yaxından iştirak edib. Araşdırma nəticəsində məlum olub ki, onlar sərhədi bilərəkdən pozmayıblar, sadəcə, gedəcəkləri yolu azıblar. Təxminən bir aydan sonra ABŞ hərbçiləri Astarada ABŞ-ın İrandakı səfirliyinin əməkdaşlarına təhvil verilib".

### Heydər Əliyev onun xətrini çox istəyirdi...

Təkcə ulu öndər deyil, Akif Bağırovla birgə təhlükəsizlik orqanlarında çiyin-çiynə çalışmış həmkarları, uzun müddət dostluq etmiş keçmiş silahdaşları, doğmaları və əzizləri onun xətrini çox istəyirdilər... Xatirələrə üz tutaq:

DTK-nın polkovniki Adil Bağırov: "Akif Bağırov yüksək mədəniyyət sahibi, təvazökar insan, yaxşı ailə başçısı idi. Mən onunla birlikdə 1943-cü ildə SSRİ DTN-in Bakı Diyarlararası Məktəbində təhsil almışam. Akif Bağırov 1-ci qrupun sinif nümayəndəsi idi. Öz təcrübəsindən istifadə edib hamıya kömək göstərirdi. Bir illik təhsildən sonra onun təyinatını Gəncəyə verdilər, mən isə Bakıda qaldım. Bununla belə dostluğumuz davam edirdi. O, çox məsuliyyətli işçi idi. Bakıya ezamiyyətə gələndə görüşüb işimizlə bağlı söhbətlər edərdik. Akif müəllimin xaricdən gələn kəşfiyyatçıların ifşa olunmasında böyük xidmətləri olmuşdu. Hətta, buna görə onu mükafatlandırmışdılar da.

O vaxtlar Gəncədə ermənilər çox yaşayırdı. Akif Bağırov Gəncədə işləyərkən həmişə ermənilərin hərəkətlərindən narazılıq edirdi. Deyirdi ki, onlar tez-tez şəhərdə gərginlik yaratmağa cəhd göstərirlər. Həmin dövrdə ermənilərə qarşı açıq mübarizə aparmaq mümkün olmurdu. Çünki bunu milli ayrı-seçkilik kimi qiymətləndirə bilərdilər. Bundan başqa, onları müxtəlif səviyyələrdə müdafiə edənlər də var idi. Amma Akif müəllim Gəncədə və Dağlıq Qarabağda işləyərkən ermənilərin gərginlik yaratmalarına imkan vermirdi. Heydər Əliyev də onun xətrini çox istəyirdi. Həmişə Akifi başqalarına misal göstərirdi".

İbrahim Əliyev: "Onu həmişə özümüzə nümunə sayırdıq. 1966-cı ildə Araz çayı üzərindəki su elektrik stansiyasının tikilməsinə hazırlıq üçün Bakıdan Naxçıvana ekspedisiya göndərildi. İran tərəfi də analoji ekspedisiya təşkil etmişdi və müqaviləyə əsasən birgə işləməli idik. Mən çox təcrübəli mütəxəssislərdən təşkil olunmuş ekspedisiyanın böyük mühəndisi idim. Akif Bağırov isə ekspedisiyaya rəis müavini göndərilmişdi. İşlədiyimiz ərazi xüsusi obyekt olduğundan rəhbərlikdə mütləq DTK-dan nümayəndə olmalı idi. Mühəndis kimi öz işinin öhdəsindən bacarıqla gələn Akif müəllimin DTK işçisi olmasını ekspedisiyada ancaq rəis və mən bilirdim. O, çox diqqətli, qayğıkeş və xeyirxah adam idi".

Sərhədin İrana aid olan hissəsində də işlədiyimizdən ekspedisiya üzvlərinin xarici pasportları var idi. Bizə İran tərəfdən bu taya adicə bir çöp keçirmək qadağan olunmuşdu. Bir dəfə iranlı işçilərdən biri azərbaycanlı həmkarına xırda bir hədiyyə bağışlamışdı. Həmin adam qayıdanda sərhədçilər onu saxladılar. Akif müəllim olmasaydı, həmin oğlanı həbs edəcəkdilər. Heydər Əliyevlə çox yaxşı münasibəti vardı. Akif müəllim polkovnik rütbəsini Heydər Əliyev DTK sədri işləyəndə almışdı. Tez-tez telefon əlaqəsi saxlayırdılar. Bu, onların münasibətlərinin necə isti, səmimi olmasını göstərirdi. Yadımdadır, Akif müəllim təqaüdə çıxandan sonra Heydər Əliyev ona təklif etmişdi ki, harada istəsə, işləyə bilər. Bir sıra rahat işlər təklif olunsa da o, Bakı Su Kəməri Tikintisi İdarəsini seçdi..."

Mustafa Bağırov: "Mənə atasının adını verib. Ona görə də ömrüm boyu bu ada layiq olmağa çalışmışam ki, atam cüzi də olsa, peşmançılıq hissi yaşamasın. O, bizim sevimli atamız, həm də arxamız, mənəvi dayağımız, ən yaxın dostumuz, sirdaşımız idi. Cəmiyyət arasında özümüzü ölçülü-biçili aparmağı, gözə dürtülməməyi, seçdiyimiz peşəyə ürəkdən bağlanmağı, hər nə olursa-olsun olduğumuz kimi görünməyi, dəyişməməyi tövsiyə edərdi. Mən hüquqşünas olmaq qərarını vermişdim. Ancaq o, çox mehribanlıqla, səmimi şəkildə dedi ki, qardaşın Xaqani hüquq fakültəsində oxuyub, yetər. Sən şərqşünas ol, dil öyrən, xarici ölkələrdə işlə və Azərbaycanı layiqincə təmsil elə... Təbii, məmnuniyyətlə tövsiyəsinə əməl etdim. Əfqanıstanda əsgəri xidmətdə oldum. O yaxşı bilirdi ki, Əfqanıstanda vəziyyət necədir. Lakin mane olmadı, əksinə, tapşırdı ki, komandirlərin sözünə qulaq as, özündən də muğayat ol... Hər kəs onun yanına məsləhət almağa, hansısa bir kömək istəməyə gələrdi. O isə heç kəsi qapısından naümid qaytarmazdı, bacardığı köməyi göstərər, problemlərinin həllində əlindən gələni əsirgəməzdi. Qoçaq, sözübütöv, mərd, ağayana kişi idi. Kəpənək qanadları tək zərif qəlbi, incə zövqü vardı. Kefinin duru vaxtında, yaxud kədərli anlarında tar çalardı. Tarını evin ən yuxarı başından asardı. İstəyərdi ki, biz də musiqi alətlərindən hansınısa onun kimi mükəmməl çala biləl... Yoxluğunu hər an hiss edirəm, xüsusən bir problemlə, çətinliklə qarşılaşanda... Axı, o, bizim ən müdrik yolgöstərənimiz idi..."

Akif Bağırov örnək olası ömrünü beləcə, mərdi-mərdanə, alnıaçıq, üzüağ, qayğıkeş bir insan kimi yaşadı... Həyatının mənasını məhz xalq üçün faydalı olmaqda, xeyirxah işlərə imza atmaqda gördü və bu yolda heç nə itirmədi, əksinə əbədiyyət qazandı, insanların, silahdaşlarının qəlbinə köçdü. Və bu gün Dövlət Təhlükəsizliyi Xidmətinin 97-ci ildönümünün qeyd olunduğu bir tarixi dönəmdə həyatını bu orqana həsr etmiş Akif Bağırovun da ruhu şad, məsuddur.

**Esmira FUAD,**
**Ədəbiyyatşünas alim.**